

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 152 (23.794)

21 avqust 2021-ci il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## 2021-ci ilin yanvar-iyul aylarında Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafı

Muxtar respublikada 2021-ci ilin yanvar-iyul aylarında 1 milyard 603 milyon 721 min 600 manatlıq ümumi daxili məhsul istehsal olunmuşdur ki, bu da 2020-ci ilin müvafiq dövrü ilə müqayisədə 0,4 faiz çoxdur.

Hər bir nəfərə düşən ümumi daxili məhsulun həcmi 2020-ci ilin müvafiq dövrü ilə müqayisədə 1,5 faiz artaraq 3471,3 manata çatmışdır.

***

Muxtar respublikada yaranan ümumi daxili məhsulun tərkibində ilk yeri sənaye sahəsi tutur. Sənaye üzrə 660 milyon 407 min 100 manat dəyərində məhsul istehsal edilmişdir ki, bu da 2020-ci ilin müvafiq dövrü ilə müqayisədə 0,9 faiz çoxdur.

***

Vəsait qoyuluşları çərçivəsində 2021-ci ilin yanvar-iyul aylarında muxtar respublikada bütün maliyyə mənbələrindən əsas kapitala 596 milyon 951 min 400 manat vəsait yönəldilmişdir ki, bu da bir il öncəki göstəricidən 0,3 faiz çoxdur. Əsas kapitala yönəldilmiş vəsaitin 572 milyon 178 min 100 manatı və ya 95,9 faizi tikinti-quraşdırma işlərinin payına düşmüşdür.

***



2021-ci ilin yanvar-iyul aylarında 267 milyon 560 min 300 manatlıq kənd təsərrüfatı məhsulları istehsal olunmuşdur ki, bu da 2020-ci ilin müvafiq dövrü ilə müqayisədə 3,1 faiz çoxdur. Bu dövr ərzində diri çəkidə ət istehsalı 14144 ton, süd istehsalı 62439 ton olmuşdur. 2020-ci ilin müvafiq dövrü ilə müqayisədə ət istehsalı 3,4 faiz, süd istehsalı isə 1,8 faiz artmışdır.

***

2021-ci ilin yanvar-iyul aylarında informasiya və rabitə xidmətlərinin dəyəri 34 milyon 671 min 500 manat olmuşdur ki, bu da 2020-ci ilin müvafiq dövründəki xidmətlərin dəyəri ilə müqayisədə 7,6 faiz çoxdur. Bu dövr ərzində mobil rabitə xidmətinin dəyəri 25 milyon 974 min 800 manat təşkil etmiş və bir il öncəyə nisbətdə 1,2 faiz artmışdır.

***

Təsərrüfat subyektlərinin kredit resurslarına çıxış imkanları davamlı olaraq yaxşılaşdırılmış, 2021-ci ilin yanvar-iyul aylarında muxtar respublikanın bank və kredit təşkilatları tərəfindən hüquqi və fiziki şəxslərə 126 milyon 837 min 300 manat məbləğində kreditlər verilmişdir ki, bu da bir il öncəki göstəricidən 26,8 faiz çoxdur. Verilmiş kreditlərin 15 milyon 192 min 200 manatı və yaxud 12 faizi qısamüddətli, 111 milyon 645 min 100 manatı və yaxud 88 faizi uzunmüddətli kreditlər olmuşdur.

***

Sahibkarlıq fəaliyyətinin davamlı olaraq dəstəklənməsi, yeni istehsal müəssisələrinin yaradılması nəticəsində muxtar respublikada 384 növdə məhsul istehsal olunur ki, bunun da 127 növü ərzaq, 257 növü isə qeyri-ərzaq məhsullarıdır. Hazırda əhalinin 108-i ərzaq, 242-si qeyri-ərzaq olmaqla, 350 növdə məhsula olan tələbatı tamamilə yerli imkanlar hesabına ödənilir.

***

Muxtar respublikada bank sektorunun normal fəaliyyəti təmin edilmişdir.

1 avqust 2021-ci il tarixə muxtar respublikanın banklarında açılmış bank hesablarının sayı 96037-yə çatmışdır ki, bunun da 83027-si və ya 86,5 faizi aktiv hesablardır. 2021-ci ilin yanvar-iyul aylarında açılmış 25290 bank hesabının 25254-ü aktiv hesablar olmuşdur.

Muxtar respublikada quraşdırılmış POS-terminalların sayı 1 avqust 2021-ci il tarixə 1475-ə çatdırılmışdır.

***

2021-ci ilin yanvar-iyun aylarında muxtar respublika iqtisadiyyatında bir işçiyə hesablanmış ortaaylıq əməkhaqqı 540,8 manata çatdırılmışdır ki, bu da 2020-ci ilin müvafiq dövrü ilə müqayisədə 3 faiz çoxdur.

***

1 iyul 2021-ci il tarixə muxtar respublika əhalisinin sayı bir il öncəyə nisbətdə 1701 nəfər artaraq 462 min 309 nəfər olmuşdur.

***Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin mətbuat xidməti***

## Bu ilin ötən dövrü ərzində 72 istehsal müəssisəsi yaradılıb



***Sosial-iqtisadi inkişafın davamlılığının təmin edilməsi məqsədilə hər bir rayonun istehsal potensialından səmərəli istifadə yolu ilə sahibkarlığın inkişaf etdirilməsi mühüm şərtdir.***

Məlum olduğu kimi, sahibkarlığın, özəl sektorun inkişafına normal şərait yaratmadan iqtisadi yüksəlişi təmin etmək, əhalinin məşğulluq səviyyəsini artırmaq, infrastrukturu yeniləşdirmək, sosial məsələlərin həllinə nail olmaq mümkün deyil. Bu məqsədlə muxtar respublikada iqtisadi sahədə həyata keçirilən siyasətin əsas istiqamətlərindən birini məhz sahibkarlığın inkişafı təşkil edir.

“Naxçıvan Muxtar Respublikasının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı” bazar iqtisadiyyatı mexanizmləri əsasında sahibkarlıq fəaliyyətinin genişləndirilməsinə, yerli və xarici investisiyaları, müasir texnologiyaları cəlb etməklə və qabaqcıl idarəetmə təcrübəsindən faydalanmaqla rəqabətədavamlı məhsul istehsal edən müəssisələrin qurulmasına geniş imkan yaradıb. 2021-ci ilin ötən dövrü ərzində bu proses uğurla davam etdirilib, dövlət maliyyə dəstəyi və özəl investisiya qoyuluşu hesabına iqtisadi fəaliyyətin müxtəlif sahələri üzrə 72 istehsal və xidmət sahəsi istifadəyə verilib, 49 sahənin yaradılması davam etdirilib.

Biznesə yeni başlayan kiçik və orta sahibkarlıq subyektlərinə maliyyə dəstəyi göstərmək, bölgələrdə əhalinin məşğulluğunun təmin edilməsinə şərait yaratmaq məqsədilə sahibkarların özəl investisiya qoyuluşu ilə yanaşı, Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin tabeliyində fəaliyyət göstərən Sahibkarlığın İnkişafı Fondu tərəfindən göstərilən maliyyə dəstəyinin də mühüm rolu vardır. Belə ki, indiyə qədər fond tərəfindən 1500-dən çox layihənin maliyyələşdirilməsi həyata keçirilib.

Cari ilin ötən dövrü ərzində də bu istiqamətdə tədbirlər davam etdirilib, Sahibkarlığın İnkişafı Fondu tərəfindən yeni layihələrin reallaşdırılmasına 2 milyon 303 min 478 manat kredit ayrılıb. Kredit qoyuluşları sənaye, kənd təsərrüfatı, xidmət sahələri üzrə olmaqla, ümumilikdə, 80 layihəni əhatə edib.







Verilən kreditlər yeni sənaye müəssisələrinin yaradılmasında mühüm rol oynayıb, cari ilin ötən dövründə Sahibkarlığın İnkişafı Fondu tərəfindən sənaye sahəsinin inkişafının stimullaşdırılması üçün 3 layihənin maliyyələşdirilməsinə 115 min manat məbləğində dövlət maliyyə dəstəyi göstərilib.

Muxtar respublikada cari ilin ötən dövrü ərzində 2-si özəl investisiya, 8-i dövlət maliyyə dəstəyi olmaqla, 10 sənaye sahəsinin yaradılması başa çatdırılıb. Bu il sənaye sahəsi üçün ayrılan kreditlər odun kömürü istehsalı sahəsinin yaradılması, plastik kapsul və qapaq istehsalı, mebel istehsalı sahələrinin genişləndirilməsi, unlu-qənnadı məmulatların və kürə çörəyi istehsalı sahəsinin yaradılması məqsədilə verilib. Belə ki, alınmış kreditlər hesabına yaradılan bu 8 istehsal sahəsində, ümumilikdə, 200 nəfər üçün yeni iş yeri yaradılıb.

Muxtar respublikamızda sənaye sahəsində yeni investisiyalar arasında özəl sərmayə qoyuluşunun da payı ildən-ilə artmaqdadır. Onlardan biri 11 nəfərin işlə təmin olunduğu Naxçıvan şəhərində “Cahan Sənaye Kompleksi” Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən yaradılan istilik sistemli kombi cihazlarının istehsalı, digəri isə 4 nəfərin işlə təmin olunduğu Şərur rayonunun Qışlaqabbas kəndində fiziki şəxs Nabat Vəliyeva tərəfindən yaradılan tikiş sahələridir.

Sahibkarlığın İnkişafı Fondunun krediti və digər mənbələr hesabına muxtar respublikada sənaye məhəlləsinin, duz istehsalı müəssisəsinin, enerji içkilərinin, plastik məmulatların istehsalı, tullantı yağların yenidən emalı və bərk sürtkü yağlarının, unlu-qənnadı məmulatlarının və çörək istehsalı sahələri olmaqla, 9 sənaye müəssisəsinin yaradılması istiqamətində işlər davam etdirilməkdədir.

Sahibkarlığın İnkişafı Fondu tərəfindən maliyyələşdirilmiş layihələr kənd təsərrüfatı sahəsini də əhatə edib. Dövlət maliyyə dəstəyi göstərilmiş layihələr üzrə kənd yerlərində kiçik müəssisələrin yaradılmasına, kənd təsərrüfatı məhsullarının istehsalının artırılmasına, daxili tələbatın yerli istehsal hesabına daha dolğun və etibarlı ödənilməsinə nail olunub. Belə ki, həyata keçirilən layihələr istiqamətində əhalinin ərzaq məhsulları ilə etibarlı təminatı əsas götürülüb, bu təminatda başlıca rol oynayan kənd təsərrüfatında 76 layihənin maliyyələşdirilməsinə 2 milyon 161 min 478 manat yönəldilib.

Kənd təsərrüfatında innovativ yenilikləri tətbiq etməklə cari ilin ötən dövrü ərzində dövlət maliyyə dəstəyi və özəl investisiya hesabına 27 heyvandarlıq təsərrüfatının yaradılması, 9 heyvandarlıq təsərrüfatının genişləndirilməsi, 10 arıçılıq təsərrüfatının yaradılması, 1 arıçılıq təsərrüfatının genişləndirilməsi, ümumi tutumu 1620 ton olan 5 soyuducu anbarın yaradılması, ümumi sahəsi 5440 kvadratmetr olan 2 istixana təsərrüfatının yaradılması və sahəsi 552 kvadratmetr olan 1 istixana təsərrüfatının genişləndirilməsi, həmçinin 1 bağçılıq, 1 tingçilik, 1 quşçuluq təsərrüfatının yaradılması və 1 üzümçülük təsərrüfatının fəaliyyətinin stimullaşdırılması başa çatdırılıb.

Göründüyü kimi, muxtar respublikada sahibkarlıq fəaliyyəti üçün yaradılmış şərait öz bəhrəsini verməklə hər il yeni-yeni biznes sahələrinin yaradılmasına səbəb olur. Sahibkarlara maliyyə dəstəyinin göstərilməsi, biznesin təşkilinin sadələşdirilməsi, texniki avadanlıqların alınmasına güzəştlər edilməsi və daxili bazarın qorunması çoxlu sayda yeni sahibkarlıq obyektlərinin yaradılmasına imkan verir ki, bütün bunlar da muxtar respublika əhalisinin daha keyfiyyətli yerli məhsullarla təmin olunması deməkdir.

**Çinarə BALAYEVA**

# Sərhəd dövlətin müstəqilliyini şərtləndirən amildir



*Azərbaycan Respublikası Sərhəd Qoşunlarının formalaşmasında ümummilli liderimizin siyasi fəaliyyətinin 1990-1993-cü illəri əhatə edən Naxçıvan dövrü müstəsna əhəmiyyətə malikdir. Bu dövrdə ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə Naxçıvanda ilk milli sərhəd qurumları yaradılmışdır.*

1988-ci ildən etibarən avtomobil və dəmir yolu ermənilər tərəfindən bağlanan, iqtisadi blokadaya salınan Naxçıvan Muxtar Respublikanın sərhədyanı yaşayış məntəqələri erməni işğalçıları tərəfindən mütəmadi şəkildə atəşə tutulur, basqınlara və talanlara məruz qalırdı. Muxtar respublikanın ərazisində olan 75-ci motoatıcı diviziyanın və 41-ci sərhəd dəstəsinin hərbçiləri isə Moskvanın siyasətinə uyğun olaraq Naxçıvanı erməni təcavüzündən qorumurdu. Belə bir vəziyyət muxtar respublikanın müdafiəsinin milli qüvvələr hesabına təşkil olunması istiqamətində təcili və təxirəsalınmaz tədbirlərin görülməsini tələb edirdi.

Heç təsadüfi deyildir ki, uzaqgörən dövlət xadimi Heydər Əliyev Ali Məclisin Sədri seçildikdən cəmi dörd gün sonra 1991-ci il sentyabrın 7-də





Dövlət Müdafiə Komitəsinin yaradılması barədə qərar qəbul etmişdir. Bununla da Azərbaycanda vahid komandanlığa tabe olan ilk milli ordunun əsası qoyulmuşdur. 1992-ci il avqustun 22-də Naxçıvanda sərhəd dəstəsində ilk dəfə müstəqil Azərbaycanın üçrəngli bayrağı qaldırılmışdır. Bununla da muxtar respublikanın sərhəd xidməti həyata keçirilən 215 kilometrlik sərhəd ərazisi ilk dəfə olaraq milli Sərhəd Qoşunları tərəfindən mühafizəyə qəbul edilmişdir. Ulu öndər Heydər Əliyev demişdir: ***“Müstəqil Azərbaycan Respublikası öz ərazisinin, sərhədlərinin sahibidir, müstəqil dövlət kimi öz sərhədlərini qorumalıdır və bunun üçün də sərhəd dəstələri, sərhəd qoşunları yaradılmışdır. İnanıram ki, Azərbaycanın Sərhəd Qoşunları bundan sonra öz fəaliyyətini gündən-günə həm genişləndirəcək, həm təkmilləşdirəcəkdir”.***

Ümummilli lider Heydər Əliyevin 1993-cü ildə ali rəhbərliyə ikinci qayıdışından sonra da bu sahədə işlər davam etdirilmiş, Azərbaycan öz sərhədlərini müstəqil qorumağa qadir olduğunu nümayiş etdirmişdir. Ulu öndərin 1996-cı ilin oktyabrında Naxçıvan Muxtar Respublikasına 3 günlük səfəri zamanı sərhəd dəstəsinə gəlməsi və şəxsi heyət qarşısında çıxış etməsi sərhəd dəstəsinin tarixinə ən əlamətdar hadisələrdən biri kimi yazılıb. Müdrik siyasətçi sərhəd dəstəsinə gəlməklə bir daha göstərdi ki, Naxçıvan Muxtar Respublikasının sərhədlərinin mühafizəsinə xüsusi diqqət və qayğı göstərir. Ulu öndər sərhəd dəstəsinin fəaliyyətindən razılıqla danışaraq demişdir: ***“Sizin hamınız zabit heyəti və şəxsi heyət çox iş görmüş, yararlı sərhəd dəstəsi yaratmısınız. Gördüyünüz bu işlərə görə sizə təşəkkür edir və əmin olduğumu bildirmək istəyirəm ki, əldə etdiyiniz nailiyyətlər daha da artacaq. Burada Azərbaycan Silahlı Qüvvələrinin böyük bir dəstəsini nümunəvi dəstəyə çevirəcək, qoruyacaqsınız. Mən buna əminəm”.***

Bu gün isə ulu öndərin siyasi irsini uğurla davam etdirən Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin dövlət sərhədlərinin mühafizəsinə və sərhədçilərə göstərdiyi böyük qayğı nəticəsində Sərhəd Qoşunları daha da möhkəmlənir. ***“Sərhəd hər bir dövlət üçün onun müstəqilliyini təcəssüm etdirən çox önəmli əlamətdir. Sərhəd müstəqillik deməkdir. Müstəqillik sərhədsiz mümkün deyil”***, – deyən ölkə başçısı Dövlət Sərhəd Xidməti ilə bağlı bir çox fərman və sərəncamlar imzalamış, normativ-hüquqi baza təkmilləşdirilmiş, maddi-texniki təminat və döyüş hazırlığı artırılmışdır. Ali Baş Komandan cənab İlham Əliyevin 2004-cü il 14 yanvar tarixli Fərmanı ilə Naxçıvan Sərhəd Dəstəsinin bazasında Sərhəd Diviziyası, 2015-ci il 17 avqust tarixli Fərmanı ilə “Naxçıvan” Əlahiddə Sərhəd Diviziyası yaradılmış, Naxçıvanda sərhədlərimizin mühafizəsi istiqamətində həyata keçirilən tədbirlər yeni mərhələyə qədəm qoymuşdur.

Sərhəd Qoşunlarının formalaşması və inkişafı istiqamətində həyata keçirilən ardıcıl və məqsədyönlü tədbirlər bu gün də muxtar respublikamızda uğurla davam etdirilir, hərbi qulluqçulara hərtərəfli dövlət qayğısı göstərilir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin qayğısı ilə muxtar respublikada sovet dövründən qalan sərhəd zastavalarının yerində müasir sərhəd zastava kompleksləri tikilərək istifadəyə verilmiş, sərhədçilərin xidmət və məişət şəraiti əsaslı şəkildə yaxşılaşdırılmışdır. Göstərilən diqqət və qayğı nəticəsində qərargah binası, xəstəxana, müasir tələblərə cavab verən uşaq bağçası tikilmiş, mərkəzləşmiş istilik sistemi





yaradılmış, sərhədçi ailələri üçün istirahət parkı salınmış, hamam-camaşırxana kompleksi yenidən qurulmuş, çörək sexi istifadəyə verilmişdir. Həmçinin “Naxçıvan” Əlahiddə Sərhəd Diviziyasının ərazisində abadlıq işləri aparılmış, avtomobil parkında təmir emalatxanaları, anbarlar, avtomobillərin saxlanılması üçün yeni saxlanclar, qarovul və qazanxana binaları inşa edilmişdir. Bundan əlavə, ötən dövrdə Şərur və Culfa sərhəd komendantlıqları, müasir tələblərə uyğun sərhəd zastavaları, zabit-gizir ailələri üçün yaşayış binaları tikilərək sərhədçilərin istifadəsinə verilmişdir.

Hərbi infrastruktur quruculuğu istiqamətində görülən işlər son illər də diqqət mərkəzində saxlanılmış, 2018-ci ildə Milli Qəhrəman Əmiraslan Əliyev adına Qaraçuq sərhəd komendantlığı, 2019-2020-ci illər ərzində 3-cü, 8-ci və 15-ci sərhəd zastavaları ən müasir şəkildə inşa edilmiş və sərhədçilərin istifadəsinə verilmişdir. Cari ildə 6-cı sərhəd zastavası üçün infrastruktur obyektlərinin tikintisi başa çatdırılmışdır. 12-ci sərhəd zastavasının içməli su ilə təmin olunması məqsədilə artezian quyusu qazılmış, “Ordubad” sərhəd komendantlığı, 22-ci və 23-cü sərhəd zastavaları əsaslı təmir olunmuşdur. Sərhəd zastavalarına çəkilən yollar üzərində 12 körpü yenidən tikilmişdir. Dövlət sərhədinin etibarlı mühafizəsinin təmin olunması məqsədilə dövlət sərhədi boyunca siqnalizasiya sistemi yaradılmış və müasirtipli kameralar



quraşdırılmışdır. “Dəmirçi” və “Nehrəm” sərhəd zastavalarının bazasında yenidənqurma və kompleks tikinti işləri aparılmış, müasir tələblərə uyğun yeni qərargah binaları, əsgər yataqxanaları, anbarlar, hamam-camaşırxana, yardımçı binalar, sərhədçi ailələri üçün tam şəraitli yaşayış binaları tikilib istifadəyə verilmişdir. Nehrəm Təlim Mərkəzində və Culfa sərhəd komendantlığının Təlim Mərkəzində yenidənqurma və təkmilləşdirmə işləri aparılmışdır. Sərhəd Diviziyasında 560 yerlik əsgər yataqxanasında əsaslı təmir işləri davam etdirilir.

Şəxsi heyətin təminat və təchizatının yaxşılaşdırılması, sərhəd zastavalarının müasir texnika və avadanlıqlarla təmin edilməsi də daim diqqət mərkəzində saxlanılır. Yaradılan müasir infrastruktur və maddi-texniki təchizat döyüş hazırlığının yüksəldilməsinə və peşəkar kadr təminatına öz töhfəsini vermişdir. Naxçıvan Təlim Mərkəzində Türkiyə Respublikası və Naxçıvan qarnizonunun birləşmə və hissələri ilə birgə keçirilən döyüş atışlı taktiki təlimlərinə Sərhəd Diviziyasından cəlb olunmuş heyət yüksək əzmkarlıq göstərmiş, qarşıya qoyulan tapşırıqların yerinə yetirilməsində döyüş bacarıqları və peşəkarlıq nümayiş etdirmişdir. Sərhəd komendantlıqlarının xidməti ərazilərində qarşılıqlı fəaliyyət planına əsasən “Dövlət sərhədinin pozulması halları baş verdikdə sərhəd bölmələrinin hərəkəti və sərhəd axtarışının keçirilməsi” mövzusunda Sərhəd Diviziyasının sərhəd zastavalarının, sərhəd komendantlıqları və Çevik hərəkət taborunun şəxsi heyətinin iştirakı ilə təlim məşqləri keçirilmişdir. Təlimdə əldə olunan təcrübə, şəxsi heyətin qazandığı vərdişlər dövlət sərhədinin etibarlı mühafizəsinə təminat yaratmışdır. Müxtəlif ixtisaslar üzrə Mərkəzi Qərargahda keçirilən təlim toplanışlarında zabit heyətinin hazırlanması və təkmilləşdirilməsində Sərhəd Diviziyasının aidiyyəti üzrə bölmələrinin iştirakı təmin olunmuşdur. Həmçinin Əlahiddə Sərhəd Diviziyasının ştat strukturunda dəyişiklik və əlavələr edilmiş, Araz Su Anbarında sərhədlərin etibarlı mühafizəsinin təmin edilməsi məqsədilə sahil mühafizə qrupu yaradılmışdır. Gizir hazırlığı və Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçularının hazırlığı kurslarında Sərhəd Diviziyası üçün mütəxəssislərin hazırlanması və bu kurslarda hərbi qulluqçuların təhsil alması təşkil olunmuşdur.

Bu gün hər bir sərhədçi ulu öndərimizin və müstəqilliyimizin əmanəti olan dövlət sərhədlərimizi ayıq-sayıq qorumaqla, həm də beynəlxalq terrorizmə, təxribatçı qüvvələrə, qaçaqmalçılığa qarşı mübarizə aparırlar. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun dediyi kimi: ***“Müasir Azərbaycan sərhədçisi universal funksiyaların icraçısıdır. O, sərhədlərin mühafizəsi ilə yanaşı, beynəlxalq terrorizmə, təxribatçı qüvvələrə, narkotik maddələrin və silah-sursatın qanunsuz dövriyyəsinə, qaçaqmalçılığa qarşı mübarizə aparmalı, fədakarlıq göstərməlidir”.***

*“Naxçıvan” Əlahiddə Sərhəd Diviziyasının şəxsi heyəti yaradılan şərait və göstərilən yüksək qayğını daim öz üzərində hiss edərək daha da ruhlanır, bundan sonra da Naxçıvan Muxtar Respublikasının sərhədlərini etibarlı qoruyacaq, ayıq-sayıqlıq nümayiş etdirəcəkdir.*

**“Şərq qapısı”**

## Şəhid və qazilərimizin medalları təqdim olunub

Babək Rayon İcra Hakimiyyətinin, Naxçıvan Muxtar Respublikası Səfərbəylik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti Babək Rayon İdarəsinin təşkilatçılığı ilə Vətən müharibəsində şəhid olmuş hərbi qulluqçularımızın ailələrinə və qazimizə orden və medallar təqdim olunub. Tədbirdən əvvəl Vətən müharibəsində və ölkəmizin ərazi bütövlüyü uğrunda şəhid olanların əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Babək Rayon İcra Hakimiyyətinin başçısı Rasim Hüseynov çıxışında vurğulayıb ki, 44 günlük Vətən müharibəsində Babək rayonundan olan 16 əsgər və zabit şəhidlik zirvəsinə ucalıb. Rayonun Qahab kəndindən baş leytenant Abbasəli İsmayılov, Nəzərabad kəndindən leytenant Elvin Məmmədov və Güznüt kəndindən leytenant Ramil Əliyev belə qəhrəman oğullarımızdandır. Müharibənin ilk günlərindən döyüşə qatılan Kərimbəyli kənd sakini leytenant Cövdət Əliyev torpaqlarımızın bütövlüyü uğrunda gedən döyüşlərdə sağlamlığını itirən minlərlə hərbçilərimizdən biridir.

İcra başçısı ölkəmizdə və muxtar respublikamızda şəhid ailələrinə göstərilən dövlət qayğısından da bəhs edib, Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 15 dekabr tarixli Sərəncamı ilə Vətən müharibəsi zamanı Azərbaycan Respublikası ərazilərinin işğaldan azad edilməsi uğrunda aparılmış döyüş əməliyyatlarında iştirak etmiş, şəhid olmuş və xəsarət almış bir qrup şəxsin orden və medallarla təltif olunduğunu xatırladıb. Ölkəmizin ərazi bütövlüyü uğrunda aparılmış döyüş əməliyyatlarında iştirak edərək şəxsi igidlik və şücaət nümayiş etdirmiş şəhid baş leytenant Abbasəli İsmayılovun, şəhid leytenant Elvin Məmmədovun, şəhid leytenant Ramil Əliyevin Prezident tərəfindən layiq görüldüyü “Füzulinin azad olunmasına görə” medalı onların valideynlərinə, döyüşlərdə xəsarət alaraq yaralanan leytenant Cövdət Əliyevə təqdim olunub.

Sonda şəhid leytenant Elvin Məmmədovun atası Etibar Məmmədov göstərilən diqqətə görə dövlətimizə minnətdarlıq edib.

**Muxtar RZAZADƏ**

## Müəllimlərin işə qəbulu ilə bağlı keçirilən test imtahanları başa çatıb

Dövlət İmtahan Mərkəzi tərəfindən Naxçıvanda müəllimlərin işə qəbulu üçün elan edilmiş müsabiqənin test imtahanları başa çatıb. 858 namizədin sənəd təqdim etdiyi müsabiqəyə 214 vakant vəzifə çıxarılıb. Budəfəki müsabiqəyə indiyə qədər bu istiqamətdə keçirilmiş imtahanlar üzrə ən çox müraciət qeydə alınıb. Daha çox qeydiyyat Şərur (225), Ordubad (161) və Culfa (121) rayonları üzrə olub.

Müsabiqənin nəticələrinə görə 171 vəzifənin tutulması üçün imtahanlarda iştirak edən 829 namizəddən 134 vəzifə üzrə 493 namizəd müvafiq keçid balını toplayıb. 37 vəzifə üzrə heç bir namizəd keçid balını toplaya bilməyib. 29 nəfər isə imtahanlarda iştirak etməyib. 43 vəzifənin tutulması üçün müraciət edən olmayıb.

Müsabiqədə iştirak edənlərlə müvəffəqiyyət qazananların say nisbətində ən yüksək nəticələri isə Babək rayonu (83 faiz), Naxçıvan şəhəri (70 faiz), Culfa (69 faiz) və Ordubad (58 faiz) rayonlarından müraciət edən namizədlər göstərib.

“Naxçıvan Muxtar Respublikasında pedaqoji heyətin dövlət ümumi təhsil və peşə təhsili müəssisələrinə işə qəbulu, bilik və bacarıqlarının aparılması qaydaları”na uyğun olaraq vakant vəzifənin tutulması üçün müraciət etmiş namizədlər arasında keçid balını toplamaqla ən yüksək nəticə göstərmiş şəxs müvafiq vəzifəyə təyin olunacaq.

Qeyd edək ki, test imtahanları şəffaflıq əsasında elektron proqram təminatı vasitəsilə 2-16 avqust tarixlərdə keçirilib. İmtahan bitdikdən dərhal sonra iştirakçılara test imtahanlarının nəticəsinə dair arayış təqdim edilib.

Müsabiqədə müvəffəqiyyət qazanmış namizədlərin adlı siyahısı müvafiq vəzifələrə təyin edilmələri üçün Naxçıvan Muxtar Respublikasının Təhsil Nazirliyinə göndərilmişdir.

***Naxçıvan Muxtar Respublikası Dövlət İmtahan Mərkəzinin mətbuat xidməti***

*Yüzillik mətbuat arxivimizdən bu günə*

# Turizm işinə diqqət

## *Yaxud 40 il əvvəldən bu günə qısa bir nəzər*

***Turizm XX əsrin fenomeni olmaqla, xüsusən 1950-ci illərdən sonra bütün dünyada geniş vüsət alıb. İkinci Dünya müharibəsinin sona çatması və yeni texnologiyaların insan həyatına sürətlə daxil olması ilə asudə vaxt və turizm məsələləri də artıq tez-tez gündəmdə olmağa başlayıb. Ozamankı dünyada iki ən güclü dövlətdən biri olmuş Sovet İttifaqının bir parçası kimi Azərbaycan Respublikası və onun tərkib hissəsi olmuş Naxçıvan MSSR-də yaşayan insanlar kommunist təbliğatı və gərgin sosializm yarışı mühitində azad səyahət və turizm-rekreasiya xidmətlərindən xeyli dərəcədə kənarda qalmışdı. Bundan əlavə, ölkənin ucqar bir bölgəsi kimi insanların Naxçıvana da səyahət imkanları zəif olub, diyarımızın zəngin turizm ehtiyatlarının cazibə gücü, nəinki turistlərə, heç özümüzə də məlum olmayıb.***



İnsafən, ötən əsrin 60-cı illərindən başlayaraq müəyyən vasitələrlə dünya gündəmini tutan Naxçıvan ziyalıları turizmin dünyadakı artan gücünü görüb, onun cəmiyyət həyatındakı rolundan faydalanmaq üçün bizdə də insanların turizm səyahətlərinə daha çox meyil edə bilməsi üçün fikirlər irəli sürürlər. 50-ci illərin sonu, 60-cı illərin əvvəllərində "Şərq qapısı" qəzetinin səhifələrində Naxçıvanın tarixi abidələri, mineral suları, təbiət guşələri haqqında dərc olunmuş onlarla məqalə məhz turizm motivasiyası baxımından olduqca dəyərli işlər kimi tarixə düşüb. Daha sonrakı illərdə də, xüsusən 1970-ci illərin əvvəllərindən başlayaraq bu mövzudakı fikirlərə daha tez-tez rast gəlmək olur ki, bunlardan ilk olaraq problemə akademik səviyyədə toxunulması ilə diqqəti cəlb edəni qəzetin 27 sentyabr 1969-cu il tarixli nömrəsində Azərbaycanın görkəmli alimi, coğrafiya elmləri doktoru, professor Budaq Budaqovun imzası ilə dərc olunmuş "Mərcan gözlü Batabat" başlıqlı yazıdır. Daha sonrakı illərdə də müxtəlif müəlliflərin Naxçıvanın turizm potensialı barədə maraqlı məqalələrinə rast gəlmək mümkündür.

Ancaq qəzetin səhifələrində tam 40 il əvvəl, yəni 21 avqust 1981-ci ildə dərc olunmuş "Turizm işinə diqqət" başlıqlı müsahibə o dövrdə mərkəzi hökumət səviyyəsində ölkədə turizm-ekskursiya işinin inkişaf etdirilməsi ilə bağlı verilmiş tapşırıqlara münasibətdə ozamankı reallıqları bir daha görməyə imkan yaradır. Ayrıca olaraq turizm işinin genişləndirilməsi ilə əlaqədar həmin vaxtlarda hansı perspektivlərin planlaşdırılması baxımından da bu yazı müqayisəli təhlil üçün bu gün çox dəyərlidir.

Müsahibədə turizm işinin təşkili üzrə məsul şəxsin dediklərinə görə, 1981-ci ildə naxçıvanlı zəhmət adamlarının asudə vaxtının səmərəli keçirilməsi üçün getmə turizm üzrə keçmiş SSRİ-nin və eləcə də Azərbaycanın müxtəlif turizm-rekreasiya ocaqlarına səyahətləri təşkil olunmuş, 1981-ci ilin yanvar-avqust aylarında təyyarə ilə 17 turist qrupu, avtobusla 500 nəfərə yaxın naxçıvanlı səyahətlərə göndərilmişdir. Vəssalam! Bu gün Naxçıvandakı universitetlərdə Turizm və otelçilik və Turizm işinin təşkili ixtisasları üzrə təhsil alan tələbələr də bilir ki, turist göndərilməsi turizm fəaliyyətinin ən sadə forması olub, gəlmə turizmlə müqayisədə bir faizlik belə, problematik məsələsi yoxdur. Elə bu səbəbdəndir ki, həmin müsahibədə Naxçıvanın istifadə olunmayan turizm ehtiyatlarından ürəkağrısı ilə danışılır və Kommunist Partiyasının tapşırıqlarını yerinə yetirmək üçün heç olmasa, həmin illərdən başlayaraq Naxçıvan səyahət-ekskursiya bürosunun xətti ilə 4500-ə yaxın turistin bu diyara gətirilməsinin planlaşdırıldığı qeyd olunur. Bunun üçün isə zəruri infrastruktur və logistika məsələlərinin həllinin vacib olduğunu bildirən müsahib yaxın gələcəkdə Naxçıvanda bunların da həll olunacağına ümid edir.

Şübhəsiz, o dövrdən xeyli vaxt keçib və 1981-ci ildə xəyal edilən o gözəl arzular bir neçə il sonra bütün sovet dövlətini çökdürmüş "yenidənqurma"nın, daha sonra da mənfur erməni separatizminin zərbəsi ilə rəfdə qaldı və yalnız Azərbaycan yenidən öz dövlət müstəqilliyini bərpa edib, iqtisadi sabitliyə qovuşandan, yəni 1995-ci ildən sonra gerçək olmağa başladı. İndi bütün ölkəmizdə olduğu kimi, onun hər sahədə lider regionu olan Naxçıvan Muxtar Respublikasında da turizmdən arzuedilən





nəticələr əldə olunması üçün hərtərəfli şərait yaradılıb.

İlk olaraq onu qeyd edək ki, 40 il əvvəl planlaşdırılan ildə 4500 nəfər gəlmə turist planı həmin dövrün təbirincə desək, artıq 100 qat ödənilib. Yəni bu gün Naxçıvan il ərzində 450 minə yaxın yerli və əcnəbi turistin sərbəst səyahət etdiyi bir regiondur. Bu qədər sayda turist Naxçıvana səyahət edə bilmək üçün bütün standartlara uyğun olan və saatda 450-500 sərnişin qarşılamaq imkanına malik Naxçıvan Beynəlxalq Hava Limanının və eləcə də gömrük-keçid məntəqələrinin xidmətlərindən istifadə edir. Naxçıvana səyahət edən turistlər təkcə rayon mərkəzlərinə deyil, muxtar respublikanın bütün kəndlərinə gedən yüksək komfortlu yollardan keçir, ideal təmizlik, səliqə-sahman, yaşıllıq zolaqları, müasir servis və yüz faiz təhlükəsizliyin gətirdiyi rekreasiyadan məmnun qalırlar. 1981-ci ildə Naxçıvanda turizmin inkişafı haqqında danışan həmkarımız o zaman heç olmasa, bir dənə turist bazası yaradılmasını arzu edirdisə, bu gün Naxçıvanda birgecəlik tutumu 1500 nəfərdən çox olan, ümumilikdə, 21 mehmanxana müəssisəsi fəaliyyət göstərir. Regiona tez-tez səfər edən qonaqlar öz şəraiti ilə seçilən "Duzdağ", "Təbriz", "Qrand Naxçıvan", "Avtovağzal", "Saat Meydanı" hotellərini, Ağbulaq İstirahət Mərkəzini yaxşı tanıyırlar. Bu gün Naxçıvanda fəaliyyət göstərən Duzdağ Fizioterapiya Mərkəzi il ərzində 4 minə yaxın müalicə məqsədli turisti qəbul edir. Naxçıvandakı mehmanxana müəssisələri müasir tələbkar turistlərin hər cür işgüzar-mədəni tələbatlarını ödəyir və buradakı xidməti personalın servis keyfiyyəti də razılıqla qarşılanır. Muxtar respublikanın turizm təsərrüfatı peşəkar əllərdə olub, 2004-cü ildən Naxçıvandakı universitetlərdə hazırlanan ali təhsilli yerli turizm-servis mütəxəssislərinin gücündən tam istifadə olunmaqdadır.



СОВЕТ НАХЧЫВАНЫ

Туризм ишинә диггәт

Сизин истираһәтиниз

Turizm servisləri daimi olaraq yenilənən turizm tələbi üzərində qurulur. Yeni turizm marşrutlarının yaradılması, daha çox yeni turizm ehtiyatlarının dövriyyəyə cəlb olunması, həm bu sahədən daha çox gəlir əldə edilməsi, həm də ölkəmizin daha geniş tanıdılması deməkdir. Bu baxımdan ötən müddət Naxçıvanda turizmin əsl təkamül dövrü olmuşdur. Belə ki, 1980-ci illərin əvvəllərində Naxçıvana gələn turistlər yalnız şəhərin mərkəzindəki tarixi abidələrə baş çəkib, daha sonra fermalarla dolu Batabata gedə bilirdisə, indi hər bir həvəskar turist qrupu üçün ilk olaraq müqəddəs Əshabi-Kəhf ziyarətgahı ilə başlayan bir neçə günlük Naxçıvan turları Ordubaddan Qarabağlara, Əlincəqaladan Ağbulağa, Gülüstan türbəsindən Batabata qədər geniş bir coğrafiyada davam edir. Bu gün Naxçıvanda hər kəsin yaxından tanıdığı zəngin turizm ehtiyatları ilə yanaşı, insanları heyrətə salan Gurbulaq və Pəzməri şəlalələri, Şahbuzun və Ordubadın ucqar dağ kəndlərindəki istirahət məkanları da populyarlıq qazanmaqdadır. Turizmin ilin bütün fəsillərinə yayılması prinsipi Naxçıvanda uğurla həll olunaraq həm yay, həm də qış mövsümlərində mənalı asudə vaxt keçirilməsi üçün əlverişli imkanlar yaradılıb. Nəticədə, bir zamanar Naxçıvan şəhərinə heç olmasa, bir turist qrupu gətirilməsi xəyalı ilə yaşayan turizmçilərin övladları indi Naxçıvan şəhərindən tutmuş Gəmiqayanın 3 min metr yüksəkliyinədək hər yerdə turist daşıyan yüzlərlə lüks avtobus və mikroavtobuslarla rastlaşırlar. Bütün bunlar isə bir zamanlar Sovet dövlətinin gözdən-könüldən uzaq qalmış, sadəcə, kapitalist dövlətləri ilə sərhədyanı bir bölgə əhəmiyyətli olmuş Naxçıvanda müstəqillik illərində görülmüş sosial-iqtisadi inkişafın, mədəni yüksəlişin məntiqi nəticəsi kimi göz önündədir. Qədim diyara səyahət edən turistlərin təəssüratlarında yaşayan bu inkişafın mənzərələri isə 100 yaşlı qəzetimizin səhifələrini bəzəməkdədir.

**Əli CABBAROV**

# Tələbə adının sevinci

Bu gün muxtar respublikamızın ən ucqar sərhəd yaşayış məntəqələrində, ən kiçik kəndlərdə tikilən müasirtipli məktəb binaları təhsilin inkişafına göstərilən böyük qayğı olmaqla, şagirdlərin elm, bilik dünyasına aparan yollarını aydınladır, qarşıya qoyulmuş məqsədə nail olmaq üçün stimul yaradır, öz intellekti ilə xalqına, cəmiyyətinə daha çox fayda vermək istəyənlərin sayı ilbəil artır. Nəticədə, ali və orta ixtisas təhsili məktəblərinə qəbul imtahanlarındakı göstəricilər ildən-ilə yüksəlir.

Sərhəd bölgəsi olan Sədərək rayonunda da təhsilə göstərilən dövlət qayğısı nəticəsində hər il ali təhsil müəssisələrinə qəbul olunanların sayı artır. Bu da onunla bağlıdır ki, gələcəyimizin formalaşmasında təhsil ən mühüm amildir. Təhsilli bir cəmiyyətə sahib olmaq üçün ən vacib şərt isə övladlarımızın sahib olduğu təhsil səviyyəsidir. Onu da qeyd edək ki, yüksək bal toplayan abituriyentlər sırasında qızlar çoxluq təşkil edir. Xeyriyyəçi Hacı Zeynalabdin Tağıyev müsəlman Şərqində ilk qızlar məktəbini tikdirərək qızların təhsil almasına yaratdığı imkanlarla, əslində, bir neçə nəslin təhsil almasına şərait yaradaraq deyirdi: "Bir kişinin (və ya oğlan uşağının) təhsil alması, sadəcə, bir nəfərin təhsil almasına bərabərdirsə, bir qadının (və ya qız uşağının) təhsil alması bir nəslin təhsil almasına bərabərdir".

Hər il olduğu kimi, bu il də bəhs etdiyimiz rayona üz tutaraq, tələbə adını qazanan məzunlarla həmsöhbət olduq.

Sədərək kənd 1 nömrəli tam orta məktəbin məzunu ***Elnarə Tağıyeva*** 608 bal toplayaraq rayon birincisi olub.

Deyir ki, məktəbimizdə yaxşı təhsil almağımız üçün hər cür şərait var. Orta məktəb illərindən bilik yarışmalarında, fənn olimpiadalarında fəal iştirak etmişəm, yüksək nəticələr göstərmişəm. Qazandığım biliklər ali məktəblərə keçirilən qəbul imtahanında yaxşı nəticə əldə etməyimə səbəb olub. Seçəcəyim ixtisasa gəldikdə isə ən böyük arzum savadlı hüquqşünas olmaqdır. Çünki bu sənəti seçənlər həyatlarını insanların hüquqlarının müdafiəsi kimi müqəddəs bir məramə həsr edirlər. Bundan yaxşı, bundan nəcib nə iş ola bilər? Hələ orta məktəb illərindən humanitar fənlərə marağım daha çox olub. Onu da deyim ki, biz şagirdlərin uğurlarının başlıca səbəblərindən biri dövlətimizin yaratdığı şərait, ixtisaslı müəllimlərdir. Sevinirəm ki, qəlbimdəki istəyimə qovuşacağam. Ən böyük sevincim isə bizə bu gözəl şəraiti yaradan, dahi rəhbərin davamçısı olan, onun arzu və istəklərini yorulmadan həyata keçirən Ali Məclisin Sədri ilə görüşəcəyim gün olacaq. Səbirsizliklə bu görüşü gözləyirəm. Mənim kimi ali məktəb tələbəsi adını qazanan bütün məzunlar adından bu uğurları əldə etdiyimiz üçün bizə daim qayğı göstərən dövlətimizə minnətdaram. Çalışacağam ki, bu qayğıya cavab olaraq universitetdə də nümunəvi tələbələrdən olum, ali təhsilimi müvəffəqiyyətlə başa vurandan sonra müstəqil Azərbaycanın gənc hüquqşünası kimi qanunun aliliyini qoruyum.



***Zeynəb Mustafayeva*** Sədərək rayon Sədərək kənd 1 nömrəli tam orta məktəbi bitirib. İkinci qrupda 587 bal toplayıb. O, orta məktəbdə oxuduğu illərdə bir çox olimpiadalarda yerlər tutub, diplom və fəxri fərmanlar qazanıb. İbtidai sinifdən başlayaraq riyaziyyat fənninə marağının çox olduğunu bildirən müsahibim deyir ki, inkişaf edən müasir, güclü bir dövlətin vətəndaşı olmağımız bizə gələcəyə də ümidlə baxmağı vəd edir. Universitetdə təhsil aldığım illərdə məktəbdə qazandığım bilikləri təkmilləşdirməyə çalışacağam. Dövlətimizin bizə yaratdığı şəraitdən istifadə edib Vətənimizə fayda verə biləcək savadlı bir mütəxəssis olmağa səy göstərəcəyəm. Zeynəb onu da deyir ki, burada düşmənin bir addımlığında yaşayır, təhsil alırıq. Bir an belə, qorxu hissi keçirmirik. Çünki bilirik ki, rayonumuzu əhatə edən uca dağların başında igid Vətən oğulları ayıqsayıq dayanıb. Onlar bizi qoruyur, biz isə bunun müqabilində yaxşı oxuyur, gələcəkdə dövlətimizə sadiq kadr olmağa can atırıq.





***Səriyyə Kazımova*** üçüncü qrup üzrə 561 bal toplayıb. O, Heydərabad qəsəbə tam orta məktəbinin məzunudur. Hüquq fakültəsini seçəcəyini bildirən Səriyyə deyir ki, bu peşəyə sahib olmaq istəyi hələ uşaq çağlarından başlayıb. Ona görə də orta məktəbdə oxuduğu illərdə səylə çalışıb ki, istəyinə çata bilsin. Və bu gün çox sevinclidir ki, onun bu arzusu reallaşmaq üzrədir. Naxçıvan Dövlət Universitetində təhsil almaq istəyən məzun onu da diqqətimizə çatdırdı ki, doğma diyarımızdakı təhsil ocaqları həm görünüşcə, həm də təhsilvermə səviyyəsinə görə heç də başqa universitetlərdən geri qalmır. Muxtar respublikanın ali təhsil müəssisələrində yaradılan şərait bir gəncin yetişməsi və öz ixtisasına aid biliklərə dərindən yiyələnməsinə imkan açır. Müsahibim onu da əlavə etdi ki, tələbə adını qazanmaqla iş bitmir. Qarşıda daha məsuliyyətli bir dövr vardır. Daha çox oxumaq, öz üzərində işləmək lazımdır. Bunun üçün biz gənclərə hər cür şərait yaradılıb. Ona görə də dövlətimizə minnətdaram. Çalışacağam ki, valideynlərimi, mənə dərs deyən müəllimlərimi bundan sonra da sevindirim.

*Biz də hər bir abituriyentə zəhmət və fədakarlıqla qazandığı tələbə adının böyük şərəf və məsuliyyət olduğunu layiqincə dərk etməyi arzulayırıq.*

**Ramiyyə ƏKBƏROVA**

*Dövlət proqramı icra olunur*

## Ruhumuza hüzur, həyatımıza sağlamlıq bəxş edən yaşıllıqlara muxtar respublikamızda həssas münasibət göstərilir



***İnsanın ruhuna hüzur bəxş edən, gözoxşayan, ruhu dinləndirən yaşıllıq insan həyatının neməti, sərvətidir. Tanrının insanlara bəxş etdiyi bu neməti sərvətə çevirmək insanın öz əlindədir. Çünki təbiəti nizama salan, daha füsunkar, daha abad və ecazkar edən elə insanın özüdür. Bu mənada, təbiəti qorumaq daim diqqət mərkəzində olan vacib bir məsələdir.***

Yaşıllıq sahələrinin genişləndirilməsi muxtar respublikamızda əldə olunan ən mühüm uğurlardandır. Hətta bu uğurumuz beynəlxalq qurumlar tərəfindən də nümunə göstərilir. İndi başdan-başa yaşıllıqlarla əhatə olunan diyarımızın ötən əsrin sonlarındakı mənzərəsini gözlər önündə canlandırdıqda bu sahədə əldə olunan nailiyyətləri daha əminliklə görə bilərik. O, həmin dövrlər idi ki, ağacların məhv edilməsi, kəsilib doğranması gündəmin ən aktual mövzusu idi. Lakin bu gün ana Vətənimizin yaşıl örpəyinin qorunması məqsədilə qəbul edilən Dövlət proqramlarının icrası, reallaşdırılan yaşıllaşdırma tədbirləri öz nəticəsini verib. Bir zamanlar təbiətin yaşıl simasını dəyişərək səhraya çevirənlər anladılar ki, bizdən səxavətini əsirgəməyən ana təbiətin sonsuz nemətlərindən istifadə ediriksə, deməli, ona qənim kəsilməməliyik. Ötən əsrin 70-ci illərində ümummilli liderimiz Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə başlanılan ümumxalq işi nəticəsində doğma diyarımızın siması başdan-başa dəyişib. Təkcə bir faktı nəzərə çatdıraq ki, 1995-ci ildə muxtar respublika ərazisinin cəmi 0,6 faizi yaşıl örtüyə bürünmüşdürsə, hazırda bu rəqəm 20 faizi ötüb.

Təkcə cari ilin ötən dövründə Naxçıvan Yaşıllaşdırma Xidməti publik hüquqi şəxsi tərəfindən 2110 müxtəlif meşə, 4 min 670 meyvə, 1642 həmişəyaşıl ağac, 12 min 724 gül kolu və 140 ədəd dekorativ kol əkilərək muxtar respublikamızın gözəlliyinə gözəllik qatıb. Bundan əlavə, qeyd olunan dövrdə 6 hektar ərazidə yeni meyvə bağları salınıb və 11 hektar ərazidə meşə ağaclarına qulluq göstərilib və ya yeni ağaclar əkilib. Bir hektar ərazidə 1120 ədəd üzüm kolu əkilib.

Təbiətin mühafizəsi, hər şeydən əvvəl, ekoloji mədəniyyətdən keçir. Ağac əkmək, yaşıllıqlar salmaq insan həyatı üçün nə dərəcədə əhəmiyyətlidirsə, bu zənginlikləri qoruyub saxlamaq da bir o qədər vacib amildir. Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi və digər aidiyyəti qurumlar tərəfindən mütəmadi olaraq yaşayış məntəqələrində ekoloji-hüquqi maarifləndirmə tədbirləri həyata keçirilir, təbiəti mühafizənin əhəmiyyəti, bu sahədə hüquqpozmalara görə tətbiq olunan inzibati cərimələr insanların diqqətinə çatdırılır, onlara maarifləndirici bukletlər təqdim edilir. Bütün bunlar isə hər il ötdükcə öz bəhrəsini daha da artıqlaması ilə verir. Artıq cəmiyyətimizdə təbiətə xələl gətirən, ağacları kəsib qurudan nəsil deyil, təbiətə həssas münasibətilə seçilən, yaşıllıqları artıran ekoloji könüllü gənclər yetişib formalaşır.

Başqa sözlə, muxtar respublikamızda son illər geniş vüsət alan yaşıllaşdırma siyasətinə xidmət edən insanların əməyi bu diyarı cənnətməkana çevirib. Həyata keçirilən yaşıllaşdırma tədbirlərinin nəticəsidir ki, bu gün muxtar respublikada bu tədbirlər zamanı meyvə tinglərinin əkilməsinə daha çox diqqət yetirilir. “2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı” da bu baxımdan mühüm əhəmiyyət kəsb edir. Proqram çərçivəsində əkinçilik üçün yararlı olmayan torpaq sahələrində yeni meyvə bağlarının salınması muxtar respublikanın yaşıl örtüyünü zənginləşdirməklə yanaşı, həm də əhalinin tələbatının ödənilməsi üçün geniş imkanlar açır. Hər il bu meyvə bağlarından tonlarla məhsul yığılır.

Meyvə bağlarında yüksək məhsuldarlığa nail olunması üçün vaxtında və lazımi aqrotexniki tədbirlərin həyata keçirilməsi ilə yanaşı, torpaq və iqlim şəraitinin də nəzərə alınması mühüm şərtlərdən biridir. Bu işlərin icrası istiqamətində muxtar respublikanın torpaq-iqlim şəraitinə uyğunlaşmış, yüksək məhsuldarlığa malik 372 meyvə sortunun genetik fondu toplanıb. Həmin sortların çoxaldılaraq torpaq mülkiyyətçilərinə paylanması və yeni bağların salınması ilə əlaqədar işlər davam etdirilir.

Hazırda bu işlərə mühüm töhfə verən bir çox toxumçuluq və tingçilik təsərrüfatları fəaliyyət göstərir. Naxçıvan Yaşıllaşdırma Xidmətinin nəzdində fəaliyyət göstərən 6 saylı Tingçilik Sahəsi də belə təsərrüfatlardandır. Təsərrüfatın fəaliyyəti ilə yaxından tanış olmaq üçün həmin sahəyə yollandıq. Sahənin rəisi Elməddin Səmədovla söhbət zamanı öyrəndik ki, ərazisi 4 hektar olan sahədə bu ilin ötən dövründə 81 min müxtəlif meyvə tingi, gül və bəzək kolları yetişdirilib. Burada əsasən, mövsümi və çoxillik gül şitilləri becərilir. Qar gülü, zanbaq, karikoza, qızılgül və müxtəlif meyvə tingləri xüsusiyyətlərinə uyğun olaraq torpaqda, eləcə də dibçəklərdə yetişdirilir. Sahədə ərik, alma, alça, şaftalı, heyva, badam və yerli şəraitə uyğun digər məhsuldar meyvə tingləri və həmişəyaşıl ağaclar toxumla çoxaldılır. Ərazidə qələmlə çoxaldılan istiot ağacı da diqqətimizi cəlb edir.

Elməddin Səmədov deyir ki, burada yaradılmış 8 istixana və 4 binada işçilər üçün hər bir şəraitlə təmin olunmuş iş otaqları yerləşir. Əsas binada gül-bəzək kollarının və meyvə tinglərinin yetişdirilməsi ilə məşğul olunan “İqlim otağı” fəaliyyət göstərir. Otaqda 108 rəf quraşdırılıb. Buradakı şərait toxum vasitəsilə 11 min 664, şitil və ya qələm vasitəsilə 4536 ədəd olmaqla, il ərzində 105 min müxtəlif növ ağac, gül və bəzək bitkiləri yetişdirməyə imkan verir. Otaq təbii hava şəraitindən tamamilə təcrid olunub, avtomatlaşdırılmış işıqlandırma, suvarma, havalandırma, isitmə və nəmləndirmə sistemləri ilə təchiz edilib. Buradakı süni iqlim şəraiti istənilən növ bitkini yetişdirməyə və digər növ istixanalarla müqayisədə bitki yetişdirilməsi sahəsindəki məhsuldarlığı bir neçə dəfə artırmağa imkan verir. “İqlim otağı”nda yetişdirilən bitkilər təbii şəraitə uyğunlaşdırılmaq üçün daha sonra müvəqqəti saxlanma anbarına verilir və satışa çıxarılır. Elməddin Səmədov ərazidə gübrə və digər vasitələrin saxlanması üçün anbar yaradıldığını, bütün binaların istilik, elektrik və su sistemləri ilə təchiz olunduğunu da diqqətimizə çatdırdı.





Qeyd edək ki, müasir avadanlıqlarla təmin olunmuş “İqlim otağı”nda tinglər və gül kolları açıq havaya nisbətən daha tez böyüyür. Nəticədə isə yerli şəraitə uyğun meyvələrin genofondu qorunmaqla yanaşı, həm də daha sağlam tinglər əldə olunur. Burada yetişdirilən ağac tingləri və gül kolları cənnətməkan Naxçıvanın təbiətini daha da gözəlləşdirməyə imkan verir.

Bütün bunların nəticəsidir ki, muxtar respublikamızın yaşayış məntəqələri müasirliyi ilə yanaşı, yaşıllığı ilə də diqqəti cəlb edir. Müasir və yaraşıqlı binalarla yanaşı, onların ətrafında salınan yaşıllıq sahələri, gülkarlıqlar, yol kənarlarında boy-boya verən meyvə ağacları doğma diyarımızın hüsnünə ayrıca bir gözəllik bəxş edir. Bu sahədə əməyi olanların zəhmətini yüksək qiymətləndirir, hər kəsi diyarımızın yaşıllıqlarını qoruyub saxlamağa, onların sahəsini daha da genişləndirməyə xidmət edən xeyirxah əməllərdə fəal iştirak etməyə dəvət edirik.

**Gülcamal TAHİROVA**

## Növbəti seminar keçirilib

*Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin və Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Xidmətinin birgə təşkilatçılığı ilə Şahbuz rayonunda fəaliyyət göstərən bələdiyyə sədrləri və qulluqçuları üçün “Bələdiyyə torpaqlarının idarə olunmasında qanunvericiliyin tələbləri və məsuliyyət” mövzusunda seminar təşkil edilib.*



Tədbiri Şahbuz Rayon İcra Hakimiyyətinin əməkdaşı Söhrab Kərimov açıb.

Nazirliyin Bələdiyyələrlə iş mərkəzinin rəisi Xəyal Eyvazov qeyd edib ki, bələdiyyə mülkiyyətində olan torpaqların icarə hüququ ilə hüquqi və fiziki şəxslərə verilməsi bələdiyyələrin qərarı və tərəflər arasında bağlanmış müqavilə əsasında bazar məzənnəsi nəzərə alınmaqla həyata keçirilməlidir. İcarə müqaviləsində tərəflərin hüquqları və vəzifələri, torpaq sahəsinin statusu, öhdəliklər, müqaviləyə xitam verilməsinin əsasları və digər şərtlər nəzərdə tutulur.

Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Xidmətinin sektor müdiri Oqtay Məmmədov bildirib ki, bələdiyyə torpaqlarının idarə edilməsi zamanı qanunvericiliyin pozulmasında təqsirkar olan hüquqi və fiziki şəxslər Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş qaydada məsuliyyət daşıyırlar.

Nazirliyin Qanunvericilik bölməsinin rəisi Ayaz Məhərrəmov diqqətə çatdırıb ki, bələdiyyələr “Bələdiyyələrin statusu haqqında” Azərbaycan Respublikasının Qanunu ilə səlahiyyətlərinə aid edilmiş yerli əhəmiyyətli məsələləri müstəqil surətdə həll edir, bələdiyyənin iclaslarında baxılan məsələlərə dair qərarlar qəbul edilir.

Sonda suallar cavablandırılıb.

***Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin mətbuat xidməti***

## Cüdo birinciliyinin qalibləri məlum olub

*Naxçıvan şəhərindəki İlham Əliyev adına Olimpiya İdman Kompleksində məktəblilərin yay tətilinin səmərəli təşkili məqsədilə keçirilən kiçikyaşlı yeniyetmələr (2008-2011-ci il təvəllüdlər) arasında cüdo üzrə Naxçıvan şəhər açıq birinciliyinə yekun vurulub.*



Açılış mərasimində çıxış edənlər yarışın keçirilmə məqsədi və qaydaları haqqında idmançılara məlumat verib, onlara uğurlar arzulayıblar. Naxçıvan Muxtar Respublikası Güləş Federasiyası və Naxçıvan Şəhər Gənclər və İdman İdarəsinin təşkil etdiyi açıq birincilikdə 11 çəki dərəcəsi üzrə 60 idmançı mübarizə aparıb. Birincilikdə Naxçıvan şəhərinin idmançıları ilə yanaşı, Şərur və Culfa rayonlarının idmançıları da iştirak ediblər.

Beynəlxalq Cüdo Federasiyasının mövcud qaydalarına əsasən keçirilən açıq birinciliyin yekun nəticəsinə görə Yusif Əhmədli (27 kiloqram, Naxçıvan), Zəkəriyyə Həsənzadə (30 kiloqram, Naxçıvan), Əliislam Səfərli (34 kiloqram, Naxçıvan), Məhəmməd Mədətli (38 kiloqram, Naxçıvan), Qurban Məmmədli (42 kiloqram, Culfa), Atilla Rəhimli (46 kiloqram, Naxçıvan), Vaqif Cabbarov (50 kiloqram, Naxçıvan), Əli Hüseynov (50+ kiloqram, Naxçıvan), Aylin Məmmədli (26 kiloqram, Naxçıvan), Sənubər Qurbanova (34 kiloqram, Naxçıvan) və Səkinə Bağırlı (46 kiloqram, Naxçıvan) qalib adını qazanıblar.

Qaliblər diplom və medallarla təltif olunublar.

**Ceyhun MƏMMƏDOV**

## Döyüş hazırlığı məşğələləri aparılır



Əlahiddə Ümumqoşun Ordunun minaatan bölmələrində döyüş hazırlığı məşğələləri keçirilir.

Gənc heyətlərə müxtəlif çaplı minaatanların təyinatı və taktiki-texniki göstəriciləri haqqında ümumi məlumat verilən məşğələlərdə minaatan heyətlərin ixtisas hazırlığı artırılır və döyüş vərdişləri təkmilləşdirilir.

Məşğələlərdə bölmələrin atəş mövqelərini və komanda müşahidə məntəqələrini tutması, minaatan qurğuların döyüşə və səfərə gətirilməsi, tuşlanması, doldurulması və döyüş atışının icra olunması məşq etdirilir.

Şəxsi heyətin funksional vəzifələrinin icrasına və ixtisas hazırlığı üzrə praktik vərdişlərinin təkmilləşdirilməsinə xüsusi diqqət yetirilən məşğələlərdə bölmələr döyüş tətbiqinə hazırlanaraq planlı və plandankənar hədəflərə döyüş atışları icra edirlər.

Minaatan bölmələrində döyüş hazırlığı məşğələləri plana uyğun davam edir.

**Nəriman NƏCƏFOV**


*İtmişdir*

Zeynalov Məhərrəm Abbasəli oğlunun adına Babək rayonu, Gülşənabad kəndində yerləşən ictimai iaşə obyektinin 823 inventar nömrəli texniki pasportu itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Kosacan kənd sakini Yusifov Rəhim Abdulla oğlunun adına verilmiş JN-243A inventar nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Sadiqov Ceyhun Əli oğlunun adına olan 69BE902 nömrəli avtomobilin texniki pasportu itdiyindən etibarsız sayılır.

***

Seyidov Mirdamət Mirabbas oğlunun adına olan sürücülük vəsiqəsi itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Çərçiboğan kəndində yaşamış Seyidova Şövkət Mircəfər qızının adına verilmiş JN-498A inventar nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Şahbuz şəhərində yaşamış Paşayev İsa Cəlal oğlunun adına verilmiş JN-223A inventar nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.



ŞƏRQ qapısı

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 14.

Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Gülcamal Tahirova

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1500. Sifariş № 681